

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 45 (21.197)

5 mart 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Bolqarıstan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 4-də Sofiyanın Aleksandr Nevski meydanında rəsmi qarşılanma mərasimi olub.

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev ilə təkbətək və geniş tərkibdə görüşü olub.

Martın 4-də Sofiyada geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"ni imzaladılar.

* * *

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək və geniş tərkibdə görüşü olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 4 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında aztəminatlı insanlara sosial xidmət və humanitar yardım göstərilməsi sahəsindəki səmərəli fəaliyyətlərinə görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bir qrup əməkdaşı "Tərəqqi" medalı ilə təltif edilmişdir. Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri Vəliyev Yaşar Vəli oğlu da "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

## "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafında səmərəli fəaliyyətlərinə görə:

Bağırov Abbas Məmməd oğluna

Əzizov Musa İbrahim oğluna – **"Əməkdar bədən tərbiyəsi və idman xadimi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 mart 2015-ci il*

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafında səmərəli fəaliyyətlərinə görə:

Əliyev Elnur Murad oğlu

Hüseynov Şəfi Abbas oğlu

İbrahimov Taleh Məmməd oğlu

Yaqubov Natiq Yaqub oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 mart 2015-ci il*

## Muxtar respublikada meliorasiya və irriqasiya tədbirləri genişləndirilir

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi "Kənd təsərrüfatı ili"nə öz töhfələrini verməyə çalışır. Bu səbəbdən də komitədə qarşıdan gələn suvarma mövsümünə hazırlıq işləri görülür, hidrotexniki qurğular saz vəziyyətə gətirilir.***

Sahələrin suvarma suyuna olan tələbatının vaxtında ödənilməsi gələcəyin bol məhsulu üçün ən mühüm amillərdəndir. Ona görə də rayon Suvarma Sistemləri idarələri suvarma şəbəkələrinin mövcud vəziyyətinə nəzarəti gücləndirir və yeni xətlərin çəkilişini davam etdirir. Fevral ayında 34,2 kilometr kanal, 42,3 kilometr ara arxları, 5,3 kilometr kollektor lildən təmizlənmiş, 120 metr suvarma və 1,7 kilometr uzunluğunda təzyiqli boru xətləri təmir olunmuş, 1,9 kilometr yeni suvarma xətti çəkilmişdir. Həmçinin Vayxır sol sahil kanalının altında tikilən mexaniki suvarma şəbəkəsində 47,5 kilometr suvarma xətti, 11,5 kilometr drenaj xətti çəkilmişdir. Hazırda ərazidə işlər davam etdirilir.

Muxtar respublikada aparılan meliorativ tədbirlərlə yanaşı, mövcud su resurslarından istifadə olunaraq əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsi də diqqət mərkəzində saxlanılır. Komitənin kollektivi bu səpkidə işləri fevral ayında da uğurla yerinə yetirmiş, bu müddət ərzində muxtar respublikada 11,5 kilometr içməli su xətti təmir olunmuş, 2,5 kilometr yeni içməli su xətti çəkilmişdir. Bundan başqa, 450 metr yeni kaptaj tikilmiş, 330 metr kaptaj isə təmir olunmuşdur. Naxçıvan şəhərindəki çirkab sutəmizləyici qurğunun tikintisi də davam etdirilmişdir. Ötən ay yeni kanalizasiya şəbəkəsinin qurulması istiqamətində Naxçıvan şəhərində 290 metr kanalizasiya xətti çəkilmiş, 199 ev birləşməsi aparılmışdır. Bu istiqamətdə işlər rayon mərkəzləri və rayon mərkəzlərinə yaxın kəndlərdə də həyata keçirilmişdir.

Fevral ayında 6 kəhrizdə təmir işləri davam etdirilmiş, Araz çayında 800 metr, ümumilikdə, muxtar respublikanın yaşayış məntəqələrinə və əkin sahələrinə yaxın çay və selovlarda 2,7 kilometr məsafədə sahilbərkitmə işləri aparılmışdır. Nasos stansiyaları da istismara hazır vəziyyətə gətirilmiş, sıradan çıxmış avadanlıqlar yenisi ilə əvəz edilmişdir. Həmçinin ötən ay 38 subartezian quyusu təmir olunmuş, 2 subartezian quyusu isə bərpa edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi bundan sonra da öz fəaliyyətini qarşıya qoyulan vəzifələrin icrası istiqamətində quracaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

***Martın 4-də Kəngərli Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Şahtaxtı kəndində "Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və piyada məsuliyyəti", həmçinin "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanmasına görə məsuliyyət" mövzularında tədbir keçirilib.***

Tədbirdə Kəngərli rayon prokuroru, kiçik ədliyyə müşaviri Talıb Məmmədov "Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və piyada məsuliyyəti" mövzusunda məruzə ilə çıxış edib.

Bildirilib ki, muxtar respublikamızda sosial-iqtisadi inkişafın nəticəsi olaraq, avtomobillərin sayı ildən-ilə artmaqdadır. Təbii ki, avtomobillərin sayının artması yollardakı hərəkətin intensivliyinə də öz təsirini göstərir.

Vurğulanıb ki, son illər muxtar respublikamızda digər sahələrdə olduğu kimi, yol infrastrukturunun yeniləşməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilib, avtomobillərin maneəsiz hərəkətinə əlverişli şərait yaradılıb. Avtomobil yollarında arazilərin şəraitinə uyğun sürət həddi qoyulub, işıqforlar quraşdırılıb, piyada keçidləri müəyyənləşdirilib. Yaddan çıxarmaq olmaz ki, sürət həddini aşma, sürücülərin diqqətsizliyi və piyadaların keçidlərdən düzgün istifadə etməməsi avtomobil yollarında qəza halları yaradır, bəzən də ağır yol-nəqliyyat hadisəsinə səbəb olur. Bu da insanların sağlamlığına xəsarət yetirir və ya onların həyatına son qoyur. Talıb Məmmədov "Yol hərəkəti haqqında" Qanun, eləcə də İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə sakinlərə ətraflı məlumat verib.

Sonra Kəngərli rayon prokurorunun köməkçisi, I dərəcəli hüquqşünas Səttar Əsgərov "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanmasına görə məsuliyyət" mövzusunda məruzə ilə çıxış edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı Culfa Rayon İcra Hakimiyyətində yığıncaq olub.**

## Müşavirədə qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı görüləcək işlər müzakirə olunub



Yığıncağı giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açıb.

Tədbirdə Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənlinin, Təhsil Şöbəsinin müdiri Adəm Qasımovun, Uşaq-gənclər idman məktəbinin direktoru Abdulla Məhərrəmovun, Uşaq-gənclər şahmat idman məktəbinin direktoru Asiman Tağıyevin müzakirə olunan məsələ ilə bağlı məlumatları dinlənilib.

Yığıncaqda Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev, Gənclər və İdman naziri Azad Cabbarov çıxış ediblər. Çıxışlarda muxtar respublikada idman sahəsinə göstərilən dövlət qayğısından, adıçəkilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı qarşıda duran vəzifələrdən, işdə buraxılan nöqsanların qısa zamanda aradan qaldırılmasının vacibliyindən söhbət açılıb.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev rayonda mövcud olan idman infrastrukturunun müasir tələblərə cavab verdiyini deyib. O bildirib ki, buna baxmayaraq, yaradılan şəraitdən heç də həmişə tam istifadə olunmur. Rayonda 18 yaşadək uşaq və gənclərin çox az faizinin idmanla məşğul olması bir daha göstərir ki, onların idmanın müxtəlif növlərinə maraqlarının artırılması istiqamətində görülən işlər qənaətbəxş deyil. Rayonda idmanın bütün növlərinin inkişafı üçün lazımi tədbirlərin görülməsi, bədən tərbiyəsi və idmanın təbliği ilə əlaqədar yeni layihələrin hazırlanması, müxtəlif növ idman yarışlarının keçirilməsi günün tələbidir.

Vurğulanıb ki, rayonda fəaliyyət göstərən ümumtəhsil məktəblərində yaradılan idman zalları yetişməkdə olan gənclərin fiziki sağlamlığının təmin olunması məqsədinə xidmət edir. İdmanın kütləviliyinin təmin olunmasında ümumtəhsil məktəblərinin də üzərinə mühüm vəzifələr düşür. Çox təəssüf ki, idmana uşaq və gənclərin cəlb olunması, eləcə də məktəblərdə bədən tərbiyəsi və idman dərslərinin keçilməsi lazımi səviyyədə deyil. Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin keçilməsi səviyyəsi və metodları müasir tələblərə cavab vermir.

İcra başçısının sözlərinə görə, məktəblərdə bədən tərbiyəsi və idman dərsləri lazımi idman qurğuları ilə təchiz olunmuş zallarda deyil, siniflərdə keçilir. Bəzi məktəblərdə bədən tərbiyəsi və idman dərslərinin axırıncı dərs saatına salınması, həmçinin idman müəllimlərinin öz işinə laqeyd münasibəti şagirdlərin idman dərslərindən yayınmasına, onların gərəksiz olaraq internet-klublara getməsinə, orada saatlarla vaxt keçirmələrinə və təsir altına düşərək zərərli vərdişlərə aludə olmalarına şərait yaradır. Qarşıdakı dövrdə bu nöqsanlar aradan qaldırılacaq, ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idman dərslərinin təşkili ciddi nəzarətə götürüləcək, bədən tərbiyəsi və idman sahəsində pedaqoji fəaliyyətə müvafiq ixtisas sahibi kadrlar cəlb ediləcək, dərslərin müvafiq idman formalarında, dərs proqramına uyğun keçilməsi təmin olunacaqdır.

**Xəbərlər şöbəsi**

5 mart Bədən Tərbiyəsi və İdman Günüdür

# Muxtar respublikada bədən tərbiyəsi və idman hərtərəfli qayğı ilə əhatə olunub

**Ulu öndər Heydər ƏLİYEV:** ***Əhalinin fiziki sağlamlığının qorunub saxlanılmasında və möhkəmləndirilməsində, gənc nəslin daha sağlam və güclü olmasında idmanın müstəsna rolu vardır.***



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il martın 5-i ölkəmizdə "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunur.***

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin bütün dövrlərində idmanın inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. 1994-cü ildə ölkəmizdə Gənclər və İdman Nazirliyinin yaradılması ilə



bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılmışdır. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən yeni mərhələyə qədəm qoymuşdur. 1997-ci il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra respublikada idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmış, Azərbaycan beynəlxalq miqyasda idman ölkəsi kimi tanınmışdır. Cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi də bu sahəyə yüksək diqqət və qayğı ilə yanaşmışdır.

İdmana və idmançılara qayğı göstərilməsi, yeni olimpiya-idman komplekslərinin və digər idman obyektlərinin tikilməsi bu sahənin hərtərəfli inkişafına təkan vermişdir. Həyata keçirilən ardıcıl tədbirlər nəticəsində Azərbaycanda idman özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. 2009-cu ildə qəbul edilən "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda idmanın inkişafı sahəsində fəaliyyətin təşkilati-hüquqi əsasları, eləcə də dövlət siyasətinin konkret istiqamətləri öz əksini tapmışdır. Eyni zamanda ölkəmizdə idmanın ayrı-ayrı növlərinin inkişafına dair dövlət proqramları qəbul edilmişdir. Nəticədə, Azərbaycan mötəbər beynəlxalq idman yarışlarının təşkilatçısına çevrilmişdir. 2015-ci ildə Birinci Avropa Olimpiya Oyunlarının ölkəmizdə keçirilməsinin qərara alınması da Azərbaycanın dünyadakı yüksək idman nüfuzundan xəbər verir. Ölkə Prezidentinin dediyi kimi: ***"Azərbaycanda idman ən yüksək səviyyədədir. Biz haqlı olaraq dünyada idman dövləti kimi tanınırıq. Azərbaycanın idman uğurları bütün dünya tərəfindən yüksək qiymətləndirilir".***

Naxçıvan Muxtar Respublikasında da idmanın maddi-texniki bazası xeyli gücləndirilmişdir. Muxtar respublikada bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, idman infrastrukturunun yenidən qurulması, gənclərin idmana marağının artırılması diqqət mərkəzində saxlanılır. Son 20 ildə muxtar respublikada 2 olimpiya-idman kompleksi, 2 üzgüçülük mərkəzi, 1 şahmat mərkəzi, 6 uşaq-gənclər şahmat məktəbi, 9 uşaq-gənclər idman məktəbi, Stend və Sportinq Atıcılıq Mərkəzi, 1 peyntbol meydançası, istifadəyə verilən tam orta məktəblərdə müasir idman zalları yaradılmış, stadionlar, yeni olimpiya ağırlıqqaldırma qurğuları və digər sadətipli idman avadanlıqları quraşdırılmışdır. Ötən dövrdə muxtar respublikada idmanın təşkilati-hüquqi bazasının yaradılması və inkişaf etdirilməsi diqqət mərkəzində saxlanmış, 2002-ci ildə Boks, Güləş, Karate-do, Şərq Döyüşü Sənəti, Şahmat, Futbol, Voleybol, Basketbol, 2006-cı





ildə Paralimpiya, 2013-cü ildə isə Hava və Ekstremal, Stend və Güllə Atıcılığı federasiyaları yaradılmışdır. 2013-cü ildə "Araz-Naxçıvan" Peşəkar Futbol Komandasının fəaliyyəti bərpa olunmuşdur.

Yaradılan müasir idman infrastrukturu, öz növbəsində, Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün də geniş imkanlar açmışdır. Belə ki, 2003-cü ildə 20 yaşa qədər şahmatçılar arasında dünya çempionatı, müxtəlif vaxtlarda sərbəst və yunan-Roma güləşi üzrə "Naxçıvan kuboku" uğrunda beynəlxalq turnirlər, "Naxçıvan Open" Beynəlxalq Şahmat festivalları, 2012-ci ildə üzgüçülük üzrə Azərbaycan çempionatı, 2014-cü ildə veteranlar arasında ağırlıqqaldırma üzrə Dünya Kuboku Naxçıvanda keçirilmişdir.

Bu gün gənc nəslin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də muxtar respublikada bu sahənin inkişafı prioritet istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr, qarşıya qoyulan vəzifələr də məhz bu məqsədə xidmət edir. Bu il fevralın 21-də "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilmiş, konkret tapşırıqlar verilmişdir. Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan Muxtar Respublikasında əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna mühüm əhəmiyyət verilir. Muxtar respublikada aparılan idman siyasətinin kökündə idmanın kütləviliyinə nail olmaq, onu inkişaf və təbliğ etdirmək, sağlam nəsil yetişdirmək dayanır".***

Muxtar respublikada idmanın kütləviliyinə nail olunması, xüsusilə uşaq və gənclərin idmana cəlbi istiqamətində ardıcıl işlər görülür. Bunun nəticəsidir ki, 2014-cü ildə muxtar respublikanın gənc idmançılarının ayrı-ayrı idman növləri üzrə respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilmiş, idmançılarımız dünya çempionatlarında 2, Avropa çempionatında 3, beynəlxalq turnirlərdə 16, Azərbaycan birinciliklərində isə 56 medal qazanmışlar. Bununla yanaşı, 2 naxçıvanlı idmançı ilk dəfə keçiriləcək "Bakı-2015" Avropa Oyunlarında iştirak etmək hüququ qazanmışdır.

***Muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı sahəsində görülən işlər bundan sonra da davam etdiriləcəkdir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi aid orqanlar və muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları ilə birlikdə gənclərin idmana cəlbini diqqət mərkəzində saxlayacaq, istedadlı idmançılar nəsli yetişdiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***



# İdman insanların sağlamlığı, iqtisadiyyatın qazancıdır

***İnsan sağlamlığına və həyat tərzinə çox güclü təsiri olan idman hələ qədim dövrdən bir mədəni inkişaf tələbi kimi yaranıb genişlənmişdir. Keçmişdəki olimpiya oyunlarından da əvvəl türk xalqlarının adət-ənənəsində möhkəm yer tutmuş müxtəlif oyunların – güləş, küştü, çövkən, at sürmək, biləkqatlama yarışlarının qalibləri güclü və çevik insanlar kimi seçilmişlər.***

İndi də müxtəlif oyunlarda və yarışlarda öz qüvvəsini sınayanların belə qələbələri təkcə qalib idmançıların deyil, həm də onların uğurlarına sevinən minlərlə azarkeşin, onları yetişdirən idman məktəblərinin və bunların ərsəyə gəlməsinə öz qayğısını göstərənlərin birgə qazancıdır. Bu qazanc isə sağlam düşüncəli, iti zəkalı, qorxmaz, cəsur və vətənpərvər gənclikdir.

İdmana maraq hamıda vardır. Hələ kiçik yaşlarından məhəllə oyunlarında seçilən uşaqlar düzgün yönləndirildikdə gələcəyin usta idmançılarına çevrilirlər. İdman kütləviləşdikcə belə ulduzların da parlaması imkanları artır. Beləliklə, idman sağlamlığa və insan rifahına töhfə verməklə yanaşı, idmançıya, onun vətəninə böyük şöhrət gətirir.

Bununla bərabər, idman mühüm iqtisadi göstəricilərlə ifadə olunan bir sahədir. İdman infrastrukturunun yaradılmasına, yarışların keçirilməsinə, reklam-sponsorluq fəaliyyətinə çəkilən xərclər, qalib komandalara və idmançılara verilən kubok və mükafatlar, ölkəsindən xaricdə müqavilə ilə çıxış edən idmançıların aldıqları irimiqyaslı qonorarlar və digər gəlirlər dünyada milyard dollarlarla ölçülən bir həcmdə idman iqtisadiyyatını formalaşdırır. Bu da, öz növbəsində, zəncirvari qaydada özünün geniş imkanları ilə bir çox xidmət və istehsal sahələrinə də təsiretmə gücünə malikdir. Ona görə də idman və sağlamlığın qorunması sahəsində çəkilən xərclər gec-tez öz bəhrəsini verir.

Şübhəsiz, yaxşı idmançılar yetişdirib, onların bəhrəsini görmək bir günün, bir ilin işi deyildir. Bu, oğlan və qızların uşaq yaşlarından idmana həvəsləndirilməsindən tutmuş onların sevdikləri idman növü üzrə müntəzəm məşğələlərə cəlb olunmasından və daha sonrakı proseslərdə peşəkar idman pillələrində zirvəyə doğru irəliləyişindəki dəstəkdən asılıdır. Yaradılmış idman infrastrukturunun və keçirilən yarışların əhəmiyyəti burada bir daha görünür.

İdman iqtisadiyyatında çəkilən xərclərin gəlirlərə çevrilməsi görülən işlərin və əldə olunan nəticələrin həcmindən, habelə aparılan reklam, satış, yayım və sponsorluq işlərinin düzgün təşkilindən də asılıdır. Təkcə komandaların, onların üzvlərinin forma satışlarından, keçirilən yarışlara bilet satışlarından əldə olunan gəlirlər, bu tədbirlər zamanı otel, restoran, nəqliyyat, ticarət sahələrində yaranan canlanma idmanın iqtisadiyyata nə qədər töhfə verdiyini göstərir. İdman, konkret olaraq, maddi sektora daxil olmasa da, idman və turizm kimi sahələrdə yaranan güclü tələbin ödənilməsi real sektora daxil olan çox sayda digər sahələrin işinin hərəkətə gətirilməsi üçün, bir növ, ciddi siqnal, onların gələcək işinin genişləndirilməsində birbaşa investisiya rolunu oynayır. Məhz bu, idmanın iqtisadiyyatla inteqrasiyasını dərinləşdirən, ona olan maddi marağı artıran bir amildir. Məsələn, sevimli komandasına azarkeşlik etmək üçün qonşu ölkədən gəlmiş xarici turistlərin otellərdə yerləşdirilməsi, onlara digər xidmətlərin göstərilməsi ölkə iqtisadiyyatına birbaşa valyuta gəlirlərinin daxil olması deməkdir.

Göründüyü kimi, bir sosial sfera sahəsi kimi idmanın inkişafını da buradakı iqtisadi münasibətlərsiz təsəvvür etmək mümkün deyil. Dövlətin bu sahənin inkişafına olan dəstəyindən əlavə, idman sferasında keçirilən hər tədbirin təsir gücünün genişləndirilərək onu hər bir idmançının maraqlarından tutmuş hər bir vətəndaşın tələbatınadək dərinləşdirilməsi lazımdır. Muxtar respublikamızda idmana göstərilən qayğının artırılması, idman yarışlarının sayının və əhatə dairəsinin genişlənməsi bu sahənin gələcək inkişafından xəbər verir.

**Əli CABBAROV**

# Kənd təsərrüfatı ili



## Naxçıvanda güclü təsərrüfatçılıq ənənələri yaradılıb

*Bu ənənələri qorumaqla aqrar sektorda daha yüksək nəticələr qazanmaq olar*

***2015-ci ilin muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan edilməsi səbəbsiz deyil. Onunla bağlıdır ki, region sakinlərinin ərzaq məhsullarına olan tələbatının maksimum yerli istehsal hesabına ödənilməsi təmin edilsin, sənayenin inkişafı üçün güclü xammal bazası sayılan kənd təsərrüfatının elmi əsaslarla inkişafına nail olunsun. Bu məqsədlə də 2015-ci ildə bütün qüvvələrin səfərbərliyə alınması, əməli tədbirlərin daha geniş miqyasda reallaşdırılması nəzərdə tutulub.***

Fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə aid təşkilatlara 2015-ci ili uğurla başa vurmaq üçün konkret tapşırıqlar verilib. Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"2015-ci il "Kənd təsərrüfatı ili" elan olunmuşdur. Əhalinin ərzaq məhsulları ilə təmin olunması, emal müəssisələrinin xammal təchizatındakı rolu, eləcə də əhalinin əksər hissəsinin kəndlərdə məskunlaşması və aqrar sektorda çalışması nəzərə alınaraq kənd təsərrüfatının inkişafı hər zaman diqqət mərkəzində saxlanılıb. Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən edib. Bununla yanaşı, müvafiq qurumlar da kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün məhsul istehsalçılarına yaxından köməklik göstərməli və mütəxəssis məsləhətləri verməlidirlər. Əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə etmək üçün Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları bitkiçilik məhsullarının rayonlar üzrə yerli şəraitə uyğun əkilməsi, növbəli əkin sisteminin tətbiqi və torpaqların münbitliyinin artırılması ilə əlaqədar yerlərdə mütəmadi olaraq maarifləndirici tədbirlər təşkil etməlidirlər".***

Qeyd edək ki, bu tövsiyənin verilməsi həm də tarixən muxtar respublikada formalaşdırılmış güclü təsərrüfatçılıq ənənələri ilə bağlıdır. Ona görə də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi heç də çətin deyil. Qalır elmi texnologiyaları tətbiq etməklə həmin ənənələri tamamilə bərpa etmək məsələsi. Bunun üçün muxtar respublikamızda torpağın dilini bilən kifayət qədər təcrübəli təsərrüfatçılar da var.

Onların bir neçəsi ilə həmsöhbət olduq. Babək rayonunun Nehrəm bələdiyyəsinin sədri, uzun illər bu kənddəki təsərrüfatda aqronom və təsərrüfat rəhbəri işləmiş Tofiq Abutalıbov bildirdi ki, Naxçıvan Muxtar Respublikasının dağlıq, dağətəyi və düzənlik ərazilərində kənd təsərrüfatı bitkiləri, əsasən, spesifik torpaq-iqlim şəraiti və su ehtiyatlarının olması nəzərə alınaraq əkilir. Məsələn, meyvə və üzüm bağları nisbətən az su tələb etdiyindən su təminatı az olan torpaq sahələrində salınıb, bostan-tərəvəz və kartof məhsullarının düzənlik, dağətəyi və dağlıq zonalarda əkilməsi məsləhət görülüb.

Muxtar respublikanın ən böyük bölgələri olan Şərur və Babək rayonlarında, əsasən, dənli bitkilər üstünlük təşkil edib, həmin rayonlarda payızlıq taxıl əkininə ciddi önəm verilib.

Culfa rayonunun Kırna, Xoşkeşin, Əbrəqunus, Saltaq kəndlərində suya yaxın sahələr kiçik olduğundan həmin sahələrdə yalnız meyvə və üzüm bağları salınır, bu kəndlərdə mövüc və kişmiş istehsalı üçün yararlı olan üzüm sortları əkilirdi. Kəngərli rayonunun Çalxanqala kəndinin dağlıq hissəsində də vaxtilə üzüm bağları üstünlük təşkil edirdi. Burada "mələyi" üzüm sortu əkilmiş üzüm bağları yüksək məhsul verməklə yanaşı, həmin üzümlüklər qışda basdırılmırdı. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı muxtar respublikada qəbul edilmiş dövlət proqramı həmin sahələrin elmi əsaslarla inkişaf etdirilməsində başlıca stimul olub. Ona görə də həmin ünvanlarda və iqlim-torpaq şəraiti imkan verən bir sıra ərazilərdə meyvə bağları və üzümlüklər salınır, tərəvəz əkinlərinin sahələri genişləndirilir.

Babək rayonunun Nehrəm kəndinin "Pircüvar" adlanan ərazisində, əsasən, bostan-tərəvəz bitkiləri əkilib və yüksək məhsul verib. Həmin sahələrin torpaqları qumsal olduğundan bu torpaqlarda əkilən bostan sahələrinin məhsulu keyfiyyətli olmaqla xəstəlik və zərərvericilərə daha davamlı olur. Kəndin "Qaraçimən" adlanan sahələrinin torpaqları gilli torpaqlar olduğundan həmin sahələrdə bostan məhsulları tez xəstəliyə tutulur və məhsul vermir. Ona görə də bu torpaqlarda, əsasən, taxıl və yem bitkiləri əkilir.

Ordubad, Culfa və Şahbuz rayonları həm də dağlıq zonaya daxildirlər. Həmin bölgələrin dağlıq hissələri dəmyə əkinçilik üçün əlverişli zonadır. Culfa rayonunun Xanəgah, Şurud kəndlərinin dəmyə sahələrində, "Məmməd düzü", "Yarpaqlı" adlanan sahələrində 1970-1980-ci illərdə dəmyə əkini olaraq yerli xaşa olan çoxillik ot əkilərdi və yüksək məhsul əldə olunardı. Şahbuz rayon sakini, aqronom-fenoloq Qaşdar Əliyev:

– Muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələrindən söz düşəndə keçən əsrin 70-ci illərinin əvvəllərini xatırlayıram. Doğulub boya-başa çatdığım Şahbuz rayonunda 31 min hektar sahədə dənli bitkilər: yazlıq, payızlıq arpa, buğda, çovdar, darı, gülül, noxud, vələmir, zəyərək, küncüd, mərcimək bitkiləri əkilir, məhsul yığımı qar düşənədək davam edirdi. Muxtar respublikanın əksər dağlıq və dağətəyi zonalarında olduğu kimi, Şahbuzda da əkin sahələrini suvarmaq üçün əllə çıxarılan qədim su arxlarından istifadə olunurdu. Belə zonalarda xaşa bitkisinin əkilib-becərilməsi daha çox fayda verirdi. 1968-ci ildə xaşa əkinləri cəmi 8-12 hektar təşkil edirdisə, artıq 1982-ci ildə xaşa əkini sahələri 2700 hektara çatdırılmışdı. Bu məhsulun əkilib-becərilməsi Ordubad və Culfa rayonlarına da yayılmışdı.

Aran torpaqlarımızda vaxtilə pambıq, tütün kimi texniki bitkilərin əkilib-becərilməsində də yüksək göstəricilər qazanılıb. Məsələn, 1957-ci ildə Şərur respublikada ən iri pambıqçılıq rayonlarını üstələyərək birinci yerə çıxmışdı. Özbəkistandan gətirilən "F-108 Fərqanə" pambıq sortu sahələrdə yüksək məhsul götürməyə imkan verirdi. Eyni sözləri tütünçülüyə də aid etmək olar. Türkiyənin Samsun və Trabzon şəhərlərinin ixtisaslaşmış təsərrüfatlarından alınmış toxum öz bəhrəsini vermiş, məhsul istehsalı min tonları keçmişdi. Olduqca gəlirli olan tütün bitkisi fermentasiya olunandan sonra onun yarpaqları müxtəlif müəssisələrə göndərilirdi. Ona görə də Naxçıvanda tütün fermentasiya zavodu yaradılmışdı. Daha bir məhsuldar sahə olan üzümçülük sovet dönəmində ən gəlirli sahələrdən biri idi. Səksəninci illərin əvvəllərində muxtar respublikada üzüm istehsalı 148 min ton olmuşdu.

Bu gün meyvəçiliyin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramı meyvəçiliklə məşğul olanların qarşısında geniş üfüqlər açıb, proqramın qəbulundan ötən dövr ərzində xeyli uğurlara nail olunub, muxtar respublikanın, demək olar ki, bütün bölgələrində unudulmuş sortlardan ibarət bağlar salınıb və salınmaqdadır. Baramaçılığın da bərpası öz həllini gözləyən məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əsgər Həsənovun dediklərindən:

– Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış torpaq islahatı nəticəsində 42043 hektar torpaq sahəsi kənd təsərrüfatı məhsulları istehsalı üçün 70763 ailənin mülkiyyətinə verilib. Kənd təsərrüfatının inkişafına dövlətin hərtərəfli qayğısı mövcud torpaq potensialından səmərəli istifadə edilməsinə, həmçinin əkin dövriyyəsinin genişləndirilməsinə əlverişli şərait yaradıb. Əhalinin ekoloji cəhətdən təmiz, yerli kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi və istehsal müəssisələrinin xammala olan tələbatının ödənilməsi istiqamətində həyata keçirilən tədbirlərin həcmi getdikcə artır. Kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün, hər şeydən əvvəl, torpaq fondundan səmərəli və məqsədəuyğun istifadə etməklə yanaşı, illər boyu əldə edilmiş və özünü doğrultmuş üsullardan, daha dəqiq desək, təsərrüfatçılıq ənənələrindən bəhrələnmək lazımdır.

İşimizlə əlaqədar olaraq tez-tez muxtar respublikanın kənd yaşayış məntəqələrində olur, torpaq mülkiyyətçiləri ilə görüşürük. Onlar arasında illər boyu əldə olunmuş təsərrüfatçılıq ənənələrindən istifadə edənlər çoxdur. Belələri növbəli əkin sistemindən istifadəyə üstünlük verir, əkin sahəsində torpağın tərkibinə görə hansı məhsulların əkilib-becərilməsini diqqətdə saxlayırlar. Bu həmçinin əkin sahələrinin sudan istifadəsində də özünü göstərir. Muxtar respublikada yaranmaqda olan yeni təsərrüfatçılıq ənənələri də var. Yaxşı haldır ki, sahibkarlar, torpaq mülkiyyətçiləri bu ənənələrə də üstünlük verirlər. Məsələn, taxılçılıqla məşğul olanlar artıq şırım üsulundan istifadənin səmərəsini görüblər. Odur ki, bu üsuldan istifadə edənlərin sayı getdikcə artır. Daha bir yeni ənənə ondan ibarətdir ki, muxtar respublikanın bəzi aran ərazilərində eyni məhsul ildə iki dəfə əkilib-becərilir və yüksək qazanc gətirir. Ordubad rayonunda tərəvəzçilikdə, Şərur rayonunda kartofçuluqda bu üsul bir neçə ildir, tətbiq olunur.

***İnanırıq ki, mövcud şərait və imkanlardan, göstərilən dövlət qayğısından, qədim və yeni yaradılmış təsərrüfatçılıq ənənələrindən istifadə etməklə torpaq mülkiyyətçiləri və sahibkarlar "Kənd təsərrüfatı ili" elan olunmuş 2015-ci ili uğurla başa vuracaqlar.***

✍ **Muxtar MƏMMƏDOV**

***İpəkçilik kənd təsərrüfatının ən qədim sahələrindən biri olub, təbii ipək almaq üçün ipəkqurdunun yetişdirilməsi, ipəyin istehsal prosesi, yem bazası olan tut ağacı plantasiyaları salınması və ona qulluq edilməsindən, barama toxumunun istehsalından, toxumun inkubasiyasından, ipək qurdlarının bəslənməsindən ibarətdir.***

## Bəsləsən, atlaz olar tut yarpağından

*Baramaçılıq iqtisadi cəhətdən gəlirli sahədir*

Bu sahənin məqsədi xam ipək əldə etmək üçün ipəksarıyanları yetişdirib onlardan barama almaqdır. Təbii ipək özünün möhkəmliyi, istiyə davamlılığı, elastikliyi və yüksək elektroizolyasiya xüsusiyyətlərinə görə elektrotexnika və radiotexnikada, foto və kinematoqrafiyada, aviasiya və təbabətdə geniş istifadə olunur. Gigiyenikliyinə, yüngüllüyünə, zərifliyinə və gözəlliyinə görə isə o ən yaxşı toxuculuq materiallarından biridir.

Bir xammal kimi ipəkqurdu toxum şəklində əvvəl Orta Asiyaya, oradan İrana, sonra da Azərbaycana gətirilmişdir. Tarixi qaynaqlarda və məxəzlərdə göstərilir ki, ölkəmizdə ipəkçilik V-VI əsrlərdə yayılmışdır. Sonrakı dövrlərdə bir təsərrüfat sahəsi kimi tədricən əksər bölgələrimizdə də inkişaf etdirilmişdir. Bəzi ədəbiyyat mənbələrində Zaqafqaziya və eləcə də Azərbaycanda ipəkçiliyin yayılması tarixi VI-VII əsrlər göstərilir. Lakin V.A.Çıraqzadənin (1988) araşdırmalarından məlum olur ki, artıq eramızın III-IV əsrlərində Azərbaycanda ipəkçilik geniş yayılmış təsərrüfat sahələrindən olmuşdur.

XIV-XV əsrlərdən XIX əsrin əvvəllərinə qədər ipək ticarətinin və ipək xammalının əsas mərkəzi Şamaxı hesab olunmuşdur. Ölkədə ipəkçiliyin inkişafı XIII-XV əsrlərdə də davam edir. Beləliklə də, ipəkçilik əhalinin məşğuliyyət sahəsi olmaqla yanaşı, həm də həyat və güzəranı üçün gəlirli sahəyə çevrilir. Həmin dövrdən etibarən Naxçıvan, Bərdə, Şirvan, Şəki barama və ipək sapı istehsal edən bölgələrə, Şamaxı, Gəncə və Təbriz şəhərləri isə ipək parça toxunan mərkəzlərə çevrilir. XVI əsrin ikinci yarısından etibarən Ordubad və Culfa şəhərləri də böyük ipək ticarəti mərkəzi kimi tanınmışlar.

Azərbaycanda hazırlanan əla keyfiyyətli ipək parçalar ölkəyə gələn tacir və səyyahların nəzərini cəlb etmişdir. Hətta bəzi mənbələrdən ipək almaq üçün buraya Genuya və Venesiya tacirlərinin gəldiklərini də oxuyuruq. Xammalın böyük bir qismi İtaliya, Fransa, Rusiya, Türkiyə, İran kimi ölkələrdə satılmışdır.

XIX əsrə qədər ipəkçilik və xam ipək tədarükü Azərbaycan iqtisadiyyatında əsas yerlərdən birini tuturdu. Burada tədarük olunan xam ipəyin, təxminən, 80 faizi xarici ölkələrə satışa göndərilirdi. Azərbaycanın xam ipəyi Rusiyanın manufaktura sənayesi üçün böyük əhəmiyyətə malik idi.

XIX əsrin əvvəllərindən etibarən Rusiyada toxuculuq sənayesinin inkişafı Azərbaycanda baramaçılığın genişlənməsinə təkan verir.

XX əsrin əvvəllərində ipək məhsuldarlığı olduqca aşağı idi. Belə ki, hər bir qutu toxumdan (qrenadan) 18-24 kq barama əldə edilməsi yüksək məhsul hesab edilirdi. 1921-ci ildən etibarən Azərbaycanda (Şəkidə, Zaqatalada, Ağdaşda, Naxçıvanda və sair) qrena hazırlayan zavodların tikilməsinə başlanılmışdır. XX əsrin 40-cı illərində Cənubi Qafqazda istehsal olunan 34 min pud (544 ton) ipəyin 29 min pudu (464 ton) Azərbaycanın payına düşürdü. XX əsrin 70-ci illərində ölkədə yaranmış əlverişli şərait, Azərbaycan ipəkçilərinin zəngin bilik və təcrübəsi, ipəkçiliyin ölkənin iqtisadiyyatındakı mühüm rolu onun daha da inkişafına təkan vermişdir. Azərbaycanda ipəkçiliyin inkişafı üçün əsas amil tut bağlarının salınması, becərilməsi və bu sahənin genişləndirilməsi olmuşdur. Tut ağaclarının çoxalması üçün bir neçə üsuldan istifadə edilmişdir (qələm və göz calağı və sair). Lakin bağbanlar toxum vasitəsilə, şitil etmək yolu ilə çoxaltmaya daha çox üstünlük vermişlər. Çünki toxumla ərsəyə gətirilən ağaclar gövdəli, qollu-budaqlı olmaqla, daha uzun müddət məhsul (yarpaq) verir.

İpəkqurdunun bəslənməsində qadın əməyinin rolu əsas və həlledici olmuşdur. Qurdun oyadılmasından başlamış onun sarımasına və yığımına qədər olan bütün dövrdə, əsasən, qadınlar məşğul olmuşlar.

Yarpağın qırılması və daşınmasında kişi əməyindən istifadə edilmişdir. Qurd üçün gündə iki dəfə – səhər və axşamçağı yarpaq qırılması lazım gəlir. Barama istehsalı ilə ipək emalı sənayesi bir-biri ilə sıx surətdə bağlıdır. Həmin sahələrin hər hansı birində baş verən bu və ya digər dəyişiklik dərhal o birində də özünü göstərir.

Aparılan təhlillər zamanı məlum olmuşdur ki, 1920-ci ildən başlayaraq Azərbaycanda barama istehsalı, müharibə illəri istisna olmaqla, ilbəil artmışdır. Belə ki, həmin ildə 262 ton, 1930-cu ildə 2 min ton, 1940-cı ildə 2,4 min ton, 1950-ci ildə 2,6 min ton, 1960-cı ildə 3,1 min ton, 1970-ci ildə 3,7 min ton, 1975-ci ildə 4,4 min ton, 1978-ci ildə 4,7 min ton, 1979-cu ildə 4,8 min ton, 1980-ci ildə 5 min ton, 1982-ci ildə 5,3 min ton yaş barama yetişdirilmişdir. Azərbaycanda barama istehsalının ilbəil artmasının əsas səbəbi bu sahədə çalışan alim və mütəxəssislərin yeni məhsuldar tut (çəkil) sortları yaratması və çoxaldılaraq respublikamızın regionlarında əkinlərinin genişləndirilməsi olmuşdur. Bir kiloqram yarpaqdan ipək çıxımı ilə fərqlənən xanlar tut, firudin tut, əmin tut, sıxgöz tut, zərif tut və cır tut sortlarından muxtar respublikamızda da əkilmiş və yüksək barama məhsulu əldə edilmişdir. 1990-cı ildə muxtar respublika üzrə sistemli tut bağlarının əkin sahəsi 762 hektar təşkil edirdi. Həmin bağlardan hər il yüksəkkeyfiyyətli yarpaq toplanaraq barama qurdları yemləndirilirdi.

1990-cı illərin qış aylarında şaxtadan qorunmaq məqsədilə insanlar tərəfindən tut və digər meyvə ağacları kütləvi şəkildə kəsilərək yandırılmış, beləliklə, tut bağları sıradan çıxmışdır. Aparılan təhlillər zamanı müəyyən edilmişdir ki, muxtar respublikada yaş barama istehsalı 1970-ci ildə 72,6 ton, 1975-ci ildə 87,6 ton, 1980-ci ildə 122 ton, 1983-cü ildə 137 ton, 1990-cı ildə 89 ton, 1993-cü ildə isə azalaraq 22,7 ton olmuşdur. İstehsal edilən yaş barama məhsulu o dövrdə mərkəzləşdirilmiş qaydada satışa çıxarılırdı. Məhsul satışından baramaçılar xeyli gəlir əldə edirdilər.

Qədim tarixə malik Azərbaycanın tarixi İpək Yolu üzərində yerləşməsi baramaçılıq və ipəkçiliyin ölkə iqtisadiyyatında bütün dövrlərdə böyük rol oynamasına səbəb olmuşdur.

"2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nda baramaçılığın inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Son illər muxtar respublikanın kənd və qəsəbələrində, yol kənarlarında tut ağaclarının əkin sahəsi xeyli genişləndirilmişdir ki, bu da baramaçılığın inkişaf etdirilməsinə zəmin yaradır.

**Ədalət HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

*(Əvvəli qəzetimizin 4 mart 2015-ci il tarixli sayında)*

hisəni özləri həll edərdilər. Elə uşaqlar olurdu ki, onları oyuna buraxmırdılar. Digəri gərdiş edib, at oynadıb, söz qoşub, saz çalıb: "Ay, mənə qənim", – deyib nərə çəkənlərin meydanı.

# Milli uşaq oyunlarının fiziki və mənəvi tərbiyədə rolu

***El meydanı xalqın tamaşa, yığıncaq yeri idi. Burada müxtəlif bayramlar, kəndirbaz, kosa-kosa, xanbəzəmə, pəhləvan oyunları keçirilərdi.***

Meydanların ətrafında, damların, divarların və ya burada olan qaraağac, narbənd, tut və çinar ağaclarının kölgələrində öz yerləri vardı məhəllə ağsaqqallarının. Onlar bu meydanların daimi iştirakçıları idilər. Yastı daşlardan, qısa, ya uzun tirlərdən düzəldilmiş xüsusi yerlərdə əyləşər, oyunlara tamaşa edərdilər.

Kiçiklərin, oyunçuların işinə yaşlılar qarışmazdılar. Çünki meydan özü hər şeyi öyrədirdi. Balacalar özündən böyüklərdən öyrənə-öyrənə gələrdilər bu meydanlara. Oyunda səhv etsəydilər, sonra düzəldilərdi. Dəcəl, cığal oyunçular oyuna şuluq qatardılar.

Uşaq oyunları yaş dövrünə görə fərqlənirdi. Evdə, həyətdə oğlanlar qızlarla birgə "Qəcəmədaş", "Beşdaş", "Gizlənqaç", "Lağ-lağ", "Ciqərəqatma" və sair oynayardılar. Meydan oyunlarına gəlincə, qızlar orada iştirak etməzdilər. Bir qayda olaraq, məhəllə meydanında oyunlar 10-12 yaşından sonra oynanılardı. Bu vaxtdan, bəzən daha erkən yaşlarda qızlar həyətlərdə özləri ayrıca oyunlar təşkil edərdilər. Əgər oğlanların oyununda daha çox hərəkətlilik, güc üstünlük təşkil edirdisə, qızların oyunlarında evdarlıq, gəlincik düzəltmə, "Qəcəmədaş", "Beşdaş", "Dom-dom", "Yelləncək", "Fincan-fincan", "Bənövşə", "Gizlənqaç" və sair bu kimi oyunlar geniş yayılmışdı. Hələ erkən yaşlardan qızlar gəlincik düzəltmək, nənni (beşik) asmaq öyrənir, "Xala-xala", "Evcik-evcik" oynayırdılar. Bu oyunlarda isə qonaq qəbul etmək, xörək bişirmək, uşağa qulluq və sair əsas yer tuturdu. Nisbətən yuxarı yaşlı qızlar oğlanlara qoşulub oynayanda onları məzəmmət edərdilər. Eyni vəziyyət qızlara qoşulub oynayan oğlanlara da aid idi.

Oyunlarda qaydalara ciddi əməl olunurdu. Güclünün zəifi incitməsi yolverilməz idi. Hər kəs öz tay-tuşu ilə oynayardı. Böyük uşaqlar kiçiklərə nəzarət edərdilər. Kollektiv oyunlarda dəstə marağı əsas idi. Dəstələrə isə daha aktiv, bacarıqlı olanlar rəhbərlik edərdilər. Uşaqlar arasında qovğadalaş olanda "birə bir deyiblər" prinsipi hakim idi. Bu məsələdə yaş fərqi və fiziki inkişafa da xüsusi diqqət yetirirdilər. Uşaqlar aralarındakı mübahisəni özləri həll edərdilər. Elə uşaqlar olurdu ki, onları oyuna buraxmırdılar. Belələri "oyunpozan", "dəcəl" (cığal), "davakar" adlandırılırdı. O dövr üçün bu, bir tərbiyə vasitəsi idi. Uşaqlar arasında oğurluq bağışlanmaz günah sayılırdı. Yoldaşlarının hər hansı bir əşyasını, aşığını oğurlayan uşağı oyuna qatmazdılar. Onu görən kimi uşaqların hamısı bir ağızdan: "oğurçu bəndə, gəlmə bu kəndə", – deyib qışqırardılar. Bəli, bu, böyük tənbeh idi. Dəstənin sirrini, gizli adları digərlərinə bildirmək olmazdı. Beləleri "satqın", "şeytan" adlandırılardı. Onlar gələn kimi "danışmayın, içimizdə şeytan var", açıq şəkildə "sən şeytansan", – deyib oyuna buraxmazdılar. Bu fikir bütün kənd üçün hakim idi. Özünü təklənmiş hiss edən, kollektivdən qopmuş birinin söz verib, ən müqəddəs saydığına and içib, əməlindən əl çəkməkdən özgə çarəsi qalmırdı. Bu, bir tövbə idi, el tövbəsi.

Oyun zamanı gücsüzün, zəifin qəlbinə dəymək, kiminsə qüsurunu üzə vurmaq günah sayılırdı.

Uşaqlar arasında məhəllə və həbə (mərkəz) təəssübü var idi. Böyük kəndlərdə bir məhəllənin uşağı az halda digər məhəllənin meydanına gedərdi, orada oyun oynayardı. Bu məsələdə qonaqlar müstəsna idi. Əksinə, onların oynaması müsbət cəhət kimi qiymətləndirilirdi. Meydanı, həbəni qorumaqdan, məhəllənin qeyrətini çəkməkdən, buradakı oyunlarda qalib gəlməkdən başlayırdı Vətən sevgisi, yurdun, torpağın müdafiəsi, böyük, kiçik məsələləri. Meydanlar təkcə oyun mərkəzi deyildi. Burada həll olunurdu bir sıra məsələlər, buradan alınırdı bütün məlumatlar. Böyüklüyündən, kiçikliyindən asılı olaraq meydanlar sənətkarlıq və ticarət mərkəzləri idi. Lazım gələndə bir yerdə dairə çəkib onu da meydan adlandırardılar. Meydanlar ictimai yerlər, əyləncə mərkəzi, el səhnəsi idi. Burada aşıqlar deyişər, bağlaşar, bir-birinin sazını alar, pəhləvanlar meydan sulayar, özlərinə qənim axtarar, biri digərinin kürəyini yerə vurardı. Ətrafa, divarların, evlərin üstünə toplanmış insanlar alqış deyərdilər. "Kitabi-Dədə Qorqud"da "Ağ" adlanan meydanlar! Sizi çox ucuz, oyunçusu ola bilmədiyimiz, daha çox televizorlardan izlədiyimiz, bəzən özümüzü unudub qeyri-ixtiyari bağırdığımız meydanlara, oyunlara dəyişdik. Meydanlar ağ olmazdı, onların üzünü igidlər ağardardılar. İki meydan sulayan var idi. Biri tozu, torpağı yatırmaq üçün meydan sulayanlar. Bu meydan sulamaq deyildi, meydana su səpmək idi. Digəri gərdiş edib, at oynadıb, söz qoşub, saz çalıb: "Ay, mənə qənim", – deyib nərə çəkənlərin meydanı.

Zaman keçdikcə meydanların, oyun və oyunçuların xarakteri dəyişdi. İndiki uşaqlardan hansı oyunları oynadıqlarını soruşduqda məktəb proqramına daxil edilən oyunlardan savayı çox az oyunun adını saya bilirlər. Milli qəhrəmanların, nağıl qəhrəmanlarımızın yerini Şirek, Hörümçək adam, Benten, bizim adını bilmədiyimiz çoxları tutublar. Uşağın fərdi yaradıcılığı itib, oyuncaqlar millilikdən çıxıb, nəzarətsiz şəkildə kompüterdə yaşına uyğun olmayan müxtəlif oyunlar oynayan, lazım olmayan proqramları izləyən uşaqların fiziki, milli, mənəvi tərbiyəsində, sağlamlığında ciddi zədələnmələr baş verib.

İndi də televizordan izlədiyimiz meydanlar, meydançalar var. Onların çoxu bizə doğma deyil. Çünki biz onun oyunçusu olmamışıq. Orada el adəti, ağsaqqal sözü, el qiyməti yoxdur. Qaydalar oyunçuların ixtiyarında deyil. Saymacası, halaypalayı, oyunçuların hər oyun üçün seçdikləri, idarə edə bilmədikdə dərhal dəyişdirdikləri dəstəbaşılar, oyunlar və meydanlar yoxdu.

Düşünürük ki, bu gün milli uşaq oyunlarının müəyyən hissəsini bərpa etmək olar. Bunun üçün lazımi şərait mövcuddur. Bütün məktəblərimizdə müasir idman zalları, meydançalar yaradılıb. İndi kəndlərimizin siması dəyişilib, onların geniş mərkəzləri vardır. Ən başlıcası isə milli-mənəvi dəyərlərimizə, xalq yaradıcılığına, onların bərpasına, qorunub saxlanmasına hərtərəfli dövlət qayğısı göstərilir. Bunu son illərdə Novruz bayramı və digər el şənlikləri ilə bağlı keçirilən mərasimlər də sübut edir. Belə şənliklər milli-mənəvi dəyərlərin, xalq yaradıcılığının canlı, əyani nümayişidir. Lap bu yaxınlarda, fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilməsi bu sahəyə diqqətin yüksək səviyyədə olduğunu sübut edən faktlardandır. Biz isə yaradılmış şəraiti düzgün qiymətləndirməklə milli mədəniyyətimiz, tarixi keçmişimizlə bağlı dəyərləri dərindən araşdırmalı, nümayiş etdirməli və günün tələblərinə uyğun şəkildə qoruyub saxlamalıyıq. Belə düşünürəm ki, bu yazı ilə çoxumuz keçmişə, uşaqlıq yaşlarımıza qayıtdıq.

**Hacı Qadir QƏDİRZADƏ**
***AMEA-nın müxbir üzvü***

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin fevral ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 787951 | 78795 | 79462 | 100,8 |
| 2. | Kəngərli rayonu | 1069552 | 106955 | 107702 | 100,7 |
| 3. | Şərur rayonu | 2629710 | 262971 | 264171 | 100,5 |
| 4. | Culfa rayonu | 1597444 | 159744 | 160345 | 100,4 |
| 5. | Ordubad rayonu | 1587465 | 158747 | 159247 | 100,3 |
| 6. | Sədərək rayonu | 318516 | 31852 | 31922 | 100,2 |
| 7. | Babək rayonu | 2815468 | 281547 | 281946 | 100,1 |
| 8. | Naxçıvan şəhəri | 4013049 | 401305 | 401345 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 8590904 | 858580 | 804395 | 93,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **23410059** | **2340496** | **2290535** | **97,9** |

***İdman xəbərləri***

## Xalq-uşaq oyunlarından ibarət əyləncəli yarış



***Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların iştirakı ilə xalq-uşaq oyunlarından ibarət əyləncəli yarış keçirilib.***

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışın əsas məqsədi xalq-uşaq oyunlarının təbliğ edilməsi, uşaqların bu oyunlara olan marağını artırmaqla onlar arasında idmanın kütləviliyinə nail olunması və bu kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyasının təmin edilməsidir.

Çəldlik, çeviklik və bacarıq tələb edən bu yarışda sağlamlıq imkanları məhdud 16 uşaq 4 komandanın heyətində iştirak edib. Onlar "Arada-qalma", "Çiləmə", "Xoruz-xoruz", "İpüstü", "Kəndirdartma", "Torba içində tullanmaq", "Hoppana-hoppana", "Siçan-pişik" adlı oyunlarda qüvvələrini sınayıblar. Yarışın qalibləri münsiflər heyəti tərəfindən müəyyən edilib və onlara Paralimpiya Federasiyasının hədiyyələri təqdim olunub.

## Kikboksinq üzrə şəhər birinciliyinə yekun vurulub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi uşaq və yeniyetmələr arasında kikboksinq üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub.

5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yarışda çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, federasiyanın sədr müavini Cavanşir Salayev keçirilən tədbirin mahiyyəti və qaydaları haqda məlumat veriblər.

Federasiyanın tərkibində fəaliyyət göstərən klubların işinin təkmilləşdirilməsi, kikboksinq idman növünü uşaq və yeniyetmələr arasında təbliğ etmək, həmçinin idmançıların dərəcə və döyüş təcrübəsini artırmaq məqsədilə iki gün davam edən yarışda 80-dən çox idmançı 14 çəki dərəcəsində qüvvəsini sınayıb. İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışın yekun nəticəsinə əsasən, Şəmsəddin Əliyev (20 kq), Röyal Fərəcli (24 kq), Ümid Bayramov (27 kq), İsmayıl Yaqubov (34 kq), Anar Tarverdiyev (36 kq), Əmrah Abdullayev (39 kq), Sənan Əliyev (42 kq), Elvin Bayramov (45 kq), Fərman Rzayev (48 kq), İdrak İmanov (51 kq), Əbülfəz Rəcəbli (54 kq), Kərim Babayev (57 kq), Araz Hüseynzadə (60 kq) və Əbülfəz Əliyev (63,5 kq) bütün rəqiblərini məğlub edərək qalib adını qazanıblar.

## Şahmat Mərkəzində şəhər birinciliyi



Dünən Naxçıvan Şahmat Mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş Naxçıvan şəhər məktəblərinin komandaları arasında şahmat birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi birincilikdə 16 komanda olimpiya sistemi üzrə mübarizə aparıb. Hər komandanın heyəti isə 4 oğlan və 2 qız şahmatçı olmaqla, 6 nəfərdən ibarət idi. Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Qurbanov və Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov bayram münasibətilə bütün idmançıları təbrik edib, onlara uğurlar arzulayıblar. Şahmat Mərkəzinin direktoru Emin Hacıyev isə zəka sahiblərinə yarışın qaydaları haqda məlumat verib.

Yekun nəticəyə əsasən, 8 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Digər iki pillədə isə 14 və 5 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

## Basketbol üzrə yoldaşlıq görüşü keçirilib

Dünən Nehrəm kənd 1 nömrəli tam orta məktəbin idman zalında 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş Babək rayon və Naxçıvan şəhər komandaları arasında basketbol üzrə yoldaşlıq görüşü keçirilib.

Görüşdə daha üstün oyun sərgiləyən naxçıvanlı basketbolçular meydanı 50:31 hesablı qələbə ilə tərk ediblər.

Sonda federasiya tərəfindən fərqlənən idmançılara kubok və diplomlar təqdim olunub.

## Velosiped yürüşü

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş Naxçıvan şəhərindəki ümumtəhsil məktəblərinin şagirdləri arasında velosiped yürüşü üzrə şəhər birinciliyi keçirilib. Məktəbli oğlan və qızların mübarizə apardığı yarışda qızlar arasında 9 nömrəli tam orta məktəbin şagirdi Zülfiyyə Mehdiyeva birinci, 14 və 12 nömrəli tam orta məktəblərin şagirdləri Aysun Əliyeva ilə Nurtac Mirzəli ikinci və üçüncü yerləri bölüşüblər. Oğlanlar arasındakı yarışda isə 15 nömrəli tam orta məktəbin şagirdi Vüsal Məmmədov birinci, 17 və 6 nömrəli tam orta məktəblərin şagirdləri Ələkbər Talıbov və İmran Həsənov ikinci, üçüncü yerlərə layiq görülüblər.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 202